

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 239 (23.881)

*23 dekabr 2021-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahianın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı Aşqabadda İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə görüşünü xatırladıb, bu görüş zamanı gələcək əməkdaşlıqla bağlı bir çox məsələlərin müzakirə edildiyini və Azərbaycan-İran dostluq əlaqələrinin bir daha təsdiqləndiyini bildirib.

Hüseyn Əmir Abdullahian İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin salamlarını dövlətimizin başçısına çatdırıb. Prezident İlham Əliyev İranın dövlət başçısının salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş edib.

İranın xarici işlər naziri Prezident İlham Əliyevlə İran Prezidenti Seyid İbrahim Rəisinin Aşqabad görüşünə toxunaraq bu görüşü ölkələr arasında əlaqələrdə dönüş nöqtəsi kimi dəyərləndirib.

Söhbət zamanı siyasi, iqtisadi, enerji, nəqliyyat, humanitar və digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsi üçün birgə səylərin davam etdirilməsinin vacibliyi vurğulanıb.

Görüşdə ikitərəfli əməkdaşlığımızın gündəliyinin geniş olduğu bildirilib və yaxşı nəticələrin əldə ediləcəyinə ümidvarlıq ifadə olunub.



## Naxçıvan Muxtar Respublikasında dövlət məktəbəqədər təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

## Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasında dövlət məktəbəqədər təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi və məktəbəqədər təhsilin keyfiyyətinin artırılması məqsədilə **qərara alıram:**

1. Yerli icra hakimiyyəti orqanlarının tabeliyində olan dövlət məktəbəqədər təhsil müəssisələri Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilsin.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 22 dekabr 2021-ci il*

## 2021-ci ilin yanvar-noyabr aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı



Muxtar respublikada 2021-ci ilin yanvar-noyabr aylarında 2 milyard 631 milyon 572 min 600 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,6 faiz artaraq 5693,6 manat olmuşdur.

* * *

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 991 milyon 794 min 100 manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çoxdur.

* * *

Vəsait qoyuluşları çərçivəsində 2021-ci ilin yanvar-noyabr aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 961 milyon 676 min 200 manat vəsait yönəldilmişdir ki, bu da bir il önceki göstəricidən 1,3 faiz çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 914 milyon 688 min 400 manatı və ya 95,1 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2021-ci ilin yanvar-noyabr aylarında 483 milyon 441 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 4 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 25085 ton, süd istehsalı 84432 ton olmuşdur. 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 3,7 faiz, süd istehsalı isə 1,6 faiz artmışdır.

* * *

2021-ci ilin yanvar-noyabr aylarında informasiya və rabitə xidmətlərinin dəyəri 55 milyon 566 min 600 manat olmuşdur ki, bu da 2020-ci ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 6,8 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 41 milyon 831 min 500 manat təşkil etmiş və bir il öncəyə nisbətdə 1,4 faiz artmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, 2021-ci ilin yanvar-noyabr aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 207 milyon 694 min 500 manat məbləğində kreditlər verilmişdir ki, bu da bir il önceki göstəricidən 26 faiz çoxdur. Verilmiş kreditlərin 22 milyon 214 min 400 manatı və yaxud 10,7 faizi qısamüddətli, 185 milyon 480 min 100 manatı və yaxud 89,3 faizi uzunmüddətli kreditlər olmuşdur.

* * *

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 384 növdə məhsul istehsal olunur ki, bunun da 127 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

* * *

2021-ci ilin yanvar-oktyabr aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış ortaaylıq əməkhaqqı 546,8 manata çatdırılmışdır ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,2 faiz çoxdur.

* * *

1 noyabr 2021-ci il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 1253 nəfər artaraq 462 min 836 nəfər olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Hamiliyə verilmiş ixtisasın tələbələri ilə görüş keçirilib

“Naxçıvan” Universitetində Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinə hamiliyə verilmiş Biznesin idarə edilməsi ixtisasında təhsil alan tələbələrlə keçirilən görüşü giriş sözü ilə universitetin rektoru, dosent Nurlana Əliyeva açıb. Rektor Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair sərəncamların icrası ilə bağlı tələbələrlə keçirilən görüşlərin əhəmiyyətindən danışıb. Çıxışda müvafiq Sərəncamın icrası istiqamətində universitetdə keçirilən tədbirlərin ənənə halı aldığı vurğulanıb. Diqqətə çatdırılıb ki, innovasiyaya və dayanıqlı inkişafa əsaslanan yaradıcı düşüncəni və elmi-texniki tərəqqini əks etdirən yeni layihələrin hazırlanması hamiliyə verilən təhsil müəssisələri və hami təşkilatlar qarşısında əsas vəzifə kimi müəyyənləşdirilib.



Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin rəisi, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Azər Nağıyev bildirib ki, keçirilən tədbirin məqsədi qarşılıqlı fikir mübadiləsi aparmaqla yeni innovativ fikirlərin, layihələrin üzə çıxarılması və gerçəkləşdirilməsində tələbələrə dəstək göstərməkdən ibarətdir. Xidmət rəisi rəqəmsal texnologiyalara, elektron biznesə, proqram təminatı kimi innovativ sahələrə əsaslanan startap layihələrinə tətbiq edilən vergi güzəştləri haqqında məlumat verib. Bildirib ki, 2019-cu ildən tətbiq edilən ən mühüm vergi güzəştlərindən biri də məhz mikro və ya kiçik sahibkarlıq subyektlərinə təqdim olunmuş startap layihələrinin 3 il müddətinə mənfəət və gəlir vergilərindən azad edilməsidir.

Qeyd edilib ki, müvafiq ixtisaslı tələbələrin Dövlət Vergi Xidmətinə hamiliyə verilməsi ilə bağlı 2021-2022-ci tədris ili üçün tədbirlər planı təsdiq olunub və plana uyğun olaraq tələbələrin vergi sahəsində tətbiq edilən ən son yeniliklərdən xəbərdar edilməsi üçün xidmətin əməkdaşları mütəmadi görüşlər keçirir, praktik vərdişlərə yiyələnmələri məqsədilə xidmətin və yerli vergi orqanlarının iş prosesinə cəlb olunmaları, cari əməliyyatların aparılmasında və hesabatların hazırlanmasında birbaşa iştiraklarının təmin edilməsi istiqamətində görüşlər də nəzərdə tutulub.

Dövlət Vergi Xidmətinin Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi Qəzənfər Bayramov innovativ inkişaf sahəsində həyata keçirilən tədbirlərdən bəhs edib. Dövlət Vergi Xidmətinin şöbə rəisi Elçin Babayev isə muxtar respublikada son illərdə həyata keçirilən elektron sənəd dövriyyəsi layihəsi, elektron kitabxana, elektron universitet və innovativ fikirlərə əsaslanan digər startap layihələri haqqında məlumat verib.

Sonda suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

## Culfanın yeni quruculuq ünvanı

*Muxtar respublikamızın hərtərəfli inkişafında mühüm rol oynayan, sosial-iqtisadi inkişafın bəhrələri olan yeni quruculuq ünvanlarının sayı ilbəil artır. Bütün bölgələrimizdə olduğu kimi, Culfa rayonunda da tikinti-quruculuq tədbirləri geniş vüsət alıb.*

“Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin Culfa rayon filialı üçün yeni binanın tikintisi də hazırda uğurla reallaşdırılır. Layihəyə əsasən, ümumilikdə, 465 kvadratmetr sahədə yerləşəcək bina iki mərtəbədən ibarət olacaq. Binanın birinci mərtəbəsində əməliyyat, xəzinə, server, gözətçi otaqları, müştəri zalı, qazanxana və foye, ikinci mərtəbəsində isə direktor otağı və əlavə iş otaqları yerləşəcək. Artıq hər iki mərtəbədə əsas tikinti işləri başa çatıb, fasad hissə travertin daşı ilə üzlənib.



“Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin Culfa rayon filialı üçün yaradılan şərait əhalinin, o cümlədən sahibkar və torpaq mülkiyyətçilərinin maliyyə resurslarına olan tələbatlarının yüksək səviyyədə ödənilməsinə şərait yaratmaqla bərabər, rayonun da simasına yeni gözəllik qatacaqdır.

**Alim AĞAYEV**

Jurnalistin qeydləri

# Şəhərdən uzaqda...

***Əslində, onlarla tanışlığım təsadüfən olmuşdu. Əvvəlcədən planlaşdırılmış səfərin bir hissəsində bu yerlərin insanlarına xas qonaqpərvərliklə bizi evlərində, yaşıl bağçalarında qonaq etmişdilər. Bu ilk tanışlıqdan sonra yenidən bir neçə dəfə onlarla görüşmək imkanım oldu. Hər görüşümüzdə isə bu ailənin özünəməxsus bir tərəfini – zəhmətkeşliyini, torpağa bağlılığını, vətənsevərliyini, elm-bilik yolunda fədakarlıqlarını kəşf etdim. Təəssüratlarımı qələmə almaq üçün xeyli – təxminən, bir ildən çox müddətdə geciksəm də, düşünürəm ki, qeydlərim oxucular üçün kifayət qədər maraqlı olacaq. Bu barədə daha ətraflı bir qədər sonra...***



Həmişə yayın istisində, təbiətin ən gözəl vaxtında, ana torpağın çiçəklərə büründüyü, yaz yağışlarının torpağın hər qarışını yaşıl örpəklə örtdüyü zamanlarda, həftə sonları və yaxud məzuniyyətdə olanda insanlar şəhərdən uzağa, təbiət qoynuna getməyə çalışırlar. Bunu insanın təbiətlə bütövləşmək istəyi, təbiətin qoynunda – yaranışından bu günə qədər daha çox aid olduğu yerdə – yorğunluğunu üzərindən atmaq istəyinin nəticəsi kimi də dəyərləndirmək olar. Bu məqsədlə hansısa çəmənliyi, meşəni, bulaq başını seçənlər də olur, hər hansı bir kəndə qohum-qardaşın, dost-tanışın yanına üz tutanlar da.

Elə bu məqsədlə bir qrup yoldaşımla çıxdığımız səfərlərin birində tarixi və təbiəti ilə zəngin olan, əməksevər, ziyalı insanları ilə seçilən, tarixin bütün dövrlərindən izlərin daşıyıcısı olan Ordubad rayonuna üz tutduq. Dağlar qoynunda yerləşən səfalı kəndləri, zəngin təbiəti, məhsuldar torpaqları və zəhmətkeş insanları ilə Ordubad hər zaman diqqətçəkən bölgələrdən olub. Yolboyu bizi müşayiət edən, yaşıllıqlar içində görünməz olmuş kənd yaşayış məntəqələri, bu kəndlərdə dövlət qurumları üçün yaradılan müasir şərait, kənd sakinlərinin inşa etdiyi yaraşıqlı fərdi yaşayış evləri göz oxşayır. İrəlilədiyimiz geniş asfalt yol isə "yol mədəniyyətdir" deyiminin bariz sübutu olaraq bu yaşayış məntəqələrinə bizi rahat şəkildə çatdırır.

Yolumuz üzü dağlara tərəfdir; daha uzaqlara, təbiətin qoynuna. Bizi müşayiət edən isə dağların ətrafına dolanaraq, sinəsi ilə yüksələrək dolambaclı şəkildə mənzilbaşına gedən dağ yollarıdır. Göz işlədikcə uzanıb gedən dağlarla bərabər uzanan bu yollar səhər Günəşinin şəfəqləri ilə parlayaraq sirli bir mənzərə yaradır. Sağ tərəfdə – aşağıda dərin dərə, sol tərəfdə isə hündür dağlar yolu daha da irəli aparır. Dərədən bütün gücü ilə axan Gilançayın dağlardan gətirdiyi sərin suyu burada sıx ağacların bitməsinə, meyvə bağlarının salınmasına şərait yaradıb. Sırası ilə düzülmüş arı yeşikləri, ağacların arasından gözə dəyən tərəvəz əkilmiş sahələr, bəzi yerlərdə artıq hündür təpə kimi qalaqlanmış quru ot tayaları bu yerlərin zəhmətkeş insanları haqqında ilk təsəvvürləri yaradır.

Hündürlüyə qalxdıqca aşağıdakı mənzərə daha heyrətamiz görünür. Gilançayın hər iki sahilində sıx bitmiş ağacların çətirlərindən çay, demək olar ki, görünməz olur. Dərə ilə, sanki ağaclardan ibarət çay axır. Qarşıda sıra ilə çiyin-çiyinə uzanan dağların mənzərəsi isə nəyə desən deyər. Azca duman pərdəsinə bürünən dağların mavi gözəlliyi üfüqdə səmanın maviliyi ilə qovuşaraq vahid bir mənzərə yaradır. Bu gözəl təbiət mənzərələrini izləyə-izləyə Nəsirvaz çayı üzərində XVII əsrdə inşa edilmiş qədim körpüdən keçərək seçdiyimiz kəndə çatırıq. Bura Gilançay və onun sol qolu Nəsirvaz çayı arasında, Zəngəzur silsiləsinin yamacında yerləşən Bist kəndidir.

Kəndə birinci səfərim təbiətin ən gözəl dövrünə – may ayına təsadüf etdiyindən hər tərəf, sözün həqiqi mənasında, gül-çiçəyə qərq olmuşdu. Kəndin hər yerini bürümüş ağaclar, meyvə bağları, gurultu ilə axan Nəsirvaz çayı buraların təbiətinə daha heyrətamiz bir mənzərə qatır. Çayın kənarında ucalan nəhəng qoz ağacları, yaxınlıqdakı iri fındıq ağacları, qocaman söyüdlər bu yerlərin köhnə sakinləridir. Adam boyuna çatan otlar, təpələrin sinəsi ilə çəkilmiş su arxları, çox da böyük olmayan sahələrdə tərəvəz əkinləri, budaqları dopdolu meyvə ağacları, həyətlərdə dibçəklərdə becərilən, yaşıl-sarı meyvələri ilə gözoxşayan limonlar, evlərin qarşısında, pəncərələrin önündə özünə yer tutmuş rəngarəng çiçəklər bu yerlər haqqında kifayət qədər təsəvvür yaratmağa imkan verir. Budəfəki qəhrəmanımın ailəsi ilə tanışlığım da elə bu birinci səfərdə və təsadüfən baş tutdu.

Ailənin oğlu, gənc ziyalı Sahil müəllim bizi həyətlərində çay süfrəsinə dəvət etdi. Bu səmimi təklifi yerə salmaq olmazdı. Kəndin özünəməxsus döngələri ilə yolumuza davam etdikcə yaşıllığa qərq olmuş kənd həyətlərini geridə qoyuruq. Həyətlərin çəpərləri boyunca axan su arxları, borular vasitəsilə həyətlərə qədər gətirilən bulaq suyu bu torpaqlara can verir. Həyətlərdən küçəyə sarı əyilən həmərsin, yemişan kolları, alça ağacları ətrafa özünəməxsus gözəllik yayırdı.

Budaqları yerə qədər əyilmiş albalı ağacının yanında dayanırıq. Balaca darvazadan girdiyimiz həyətdə sanki başqa bir aləmə düşürük. Səliqəli həyət, yanyana düzülmüş arı yeşikləri, çiçəkli-meyvəli limon ağacları, cərgə ilə sıralanmış tərəvəz ləkləri, hündür meyvə ağacları, geniş çətirli tut ağacının sərin kölgəsində qoyulmuş stol və oturacaqlar həyətdə ilk diqqətçəkənlərdir. Ailə başçısı Əkbər əmi və xanımı Aybəniz müəllim bizi həyətdə böyük qonaqpərvərliklə qarşılayırlar.

Həmin gün çay masası ətrafında söhbətimizdən və o gündən sonra artıq bir neçə dəfə onlara qonaq olanda Aybəniz müəllimi hey ətrafda hansısa bir işlə məşğul olan gördüm. Gah arı ailəsinə baxır, çərçivələri təmizləyir, hansısa məhlul hazırlayır onlar üçün, gah limonlara qulluq edir, gah da talvarın altındakı danalara yem verir. Arada fikirlərini, tövsiyələrini bizimlə bölüşür, yenidən öz məşğuliyyətinə qayıdırdı.

İxtisasca tarix müəllimi olan qəhrəmanım Aybəniz xanım 1964-cü ildə Ordubad rayonunun Xurs kəndində anadan olub. Onu diqqətcil həyat yoldaşı, qayğıkeş ana, sevimli müəllim və bacarıqlı ailə təsərrüfatçısı kimi xarakterizə etmək olar. Xurs kəndində doğulub böyüsə də, həyatının böyük bir hissəsini hazırda da yaşadığı Bist kəndində keçirib. Müəllimlik fəaliyyətinin cəmi bir ili Xurs kəndi ilə bağlıdır. Bundan sonra isə ömür-gün yoldaşı Əkbər əmi ilə tanış olub, ailə həyatı qurub. Ömrünün 30 ildən çoxunu gəlin gəldiyi Bist kəndindəki məktəbdə şagirdlərin – gələcək nəsillərin yetişdirilməsinə, təlim-tərbiyəsinə həsr edib. Hazırda da böyük həvəs və sevgiylə işinə davam etməkdədir.

İbtidai siniflərdə pedaqoji fəaliyyətlə məşğul olan Aybəniz müəllim deyir ki, şagirdlərim mənim həyatım, nəfəsim, mənim mənəvi qida mənbəyimdir. Onun fikrincə, uşaqlara hədsiz demokratik ruhda davranmaq olmaz. İşində ciddi olmaq, öncə dərsi sevdirmək, oxumağın əhəmiyyətini başa salaraq dərsə başlamaq lazımdır. Təhsil almağın əhəmiyyətini, biz niyə sizə dərs deyirik, dövlət nə üçün bu qədər xərc ayırır, kitablarla təmin edir – uşaqlara ilk öncə bunları izah edirəm. Çünki uşaqlara oxumaq sevgisini təlqin etmək lazımdır. Ananı sevməyi, Vətəni, dinimizi sevməyi təlqin etdiyimiz kimi oxumağı sevməyi də təlqin etməliyik.



Vətənin mahiyyətini, doğulub-böyüdüyün yerin müqəddəsliyini, ananın, müəllimin kimliyini, həyatı oxumaqla anlamaq olar. Oxumağı uşaqlarda vərdişə çevirmək isə müəllimin və bilavasitə valideynin borcudur. Məhz bundan sonra uşaqlar axara, müəyyən bir cığıra, xətta düşürlər. Oxumağın mahiyyətini anlayırlar. İbtidai sinif şagirdlərini hökmən müəyyən nəzarət altında saxlamaqla oxumağa yönləndirmək lazımdır.



Şagirdlərinin qazandığı uğurlardan da böyük fərəh və sevinclə danışan müsahibim deyir ki, onların hər bir uğuru, qazandığı hər bir nailiyyət bir müəllim kimi mənim ən böyük qazancım və qürur yerimdir. Aybəniz müəllimin uşaqlara aşıladığı özünəinam hissi onların yüksək nəticələr göstərərək ali məktəbə qəbul olmasına və müəllimlərinin yolunu davam etdirməsinə də şərait yaradıb. İxtisasını uşaqlara sevdirməyi bacaran Aybəniz müəllimin Sabir Əhmədov, Sona Hüseynova kimi şagirdləri ali məktəbi bitirərək bu gün onunla çiyin-çiyinə çalışırlar.

Balaca yaşlarından ana qayğısından, sevgisindən məhrum olan və maddi çətinliklərlə böyüdüyünü xatırlayan Aybəniz müəllim evdə təsərrüfatçı, məktəbdə müəllim, cəmiyyət içində insanlara mənəvi yardımçı olmağı özünün həyat amalına çevirərək təmənna tələb etmədən neçə-neçə şagirdini də öz övladları ilə birlikdə ali məktəbə hazırlaşdırıb və indi də buna davam edir. "Mənim şagirdlərim mənim həyatımdır", – deyən qəhrəmanım, üç övladının da müəllimi olub. Oğlu və bir qızı onun yolunu davam etdirib müəllimlik peşəsini seçiblər, digər qızı isə Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsini bitirib. Aybəniz müəllim deyir ki, övladlarımı, sadəcə, bir övlad olaraq görməmişəm. Şagirdlərimə necə yanaşmışamsa, onlara da elə yanaşmışam. Onları cəmiyyətə yararlı bir vətəndaş olaraq böyütməyə çalışmışam. Övladlarımı Azərbaycan ənənələrinə uyğun şəkildə böyütmək üçün onların üzərində bir sənətkar kimi işləmişəm.

Təsərrüfata olan marağının yaranması haqqında söhbət açan Aybəniz müəllim deyir ki, biz kənddə yaşayırıq. Öz ailə təsərrüfatımızda heyvandarlıq, bağçılıq, bostançılıq, arıçılıqla məşğul olaraq həm öz maddi rifah halımızı yaxşılaşdırmaq üçün, həm də az da olsa, bazara çıxarmaq üçün məhsul istehsal etməyə başladıq. İnsan qarşısına qoyduğu hər bir işi yerinə yetirə bilər. Tanrı bizə ağıl verib, iradə verib, düşüncə verib. Bizim hamımız bir vətəndaş olaraq dövlətə yüklənsək, hər şeyi dövlətdən gözləsək, olmaz. Vətəndaşlar nə qədər güclü olarsa, dövlət də o qədər inkişaf edib qüdrətlənər. Mən də bu cür düşünmüşəm, şagirdlərimə də, övladlarıma da, ətrafımdakı insanlara da o cür təlqin etmişəm. Hər şeyi dövlətdən gözləməyək, özümüz istehsal edək, həm özümüz təmin olunaq, həm də tələbatı olanlara sataq, dövlətin yükünü azaldaq. Elə buna görə də istehsala başlamışam.

Bir neçə il bundan əvvəl Naxçıvan Televiziyasının efirindən gördüyüm və yaddaşımın bir küncündə ilişib qalmış, Naxçıvanın ilk arıçı qadını olaraq da xatırladığım Aybəniz müəllim arıçılıqla daha geniş məşğul olmasının səbəbini izah edərək dedi ki, heyvandarlığı arıçılığa nisbətən qadın üçün daha ağır sahədir. Buna görə də heyvandarlığı özüm üçün çətin sahə hesab edərək arıçılığı seçdim. Arıçılıq insana estetik zövq verir. O qədər mükəmməl canlılardır ki, insan öz ailəsini idarə etməyi də arıdan öyrənə bilər. Bir arı ailəsi bir saatda 2-3 kiloqram balı yeyə bilər. Amma qışda qoyulan balı o qədər



qənaətlə işlədir ki, uzun müddət ona kifayət edə bilsin. İnsan oğlu arıdan qənaətcil olmağı öyrənməlidir.

Müsahibim deyir ki, hər kəs fərqli bir şeyi sevdiyi kimi, mən də arı saxlamağı çox sevirəm. Arını və uşaqları sevirəm. Çünki ikisinin də xüsusiyyəti eynidir – diqqət və qayğı istəyir, boş dayanmır, daim məşğuldur. Arıçılıq əlverişli və gəlirli sahədir. Mən hesab edirəm ki, həm də qadın üçün daha yüngül təsərrüfat sahəsidir. İş vaxtından əlavə özünə sərf edəcəyin asudə vaxtdır. Buna görə də mən arıya baxmağı mənəvi istirahət hesab edirəm. Arını, arının iş prinsipini, arı ilə işləmə prinsipini biləndən sonra onunla məşğul olmaq daha asandır.

Aybəniz müəllim Əkbər əmi ilə birlikdə həyətyanı sahələrində kartof, lobya, pomidor, bibər – müxtəlif çeşidli tərəvəz məhsulları da yetişdirir. Dağ havasının, çay suyunun təsiri ilə burada məhsullar daha gözəl olur, həyətdə dadlı meyvələr yetişir. Ailə təsərrüfatlarında saxladıqları mal-qaradan istehsal olunan məhsulun – ətin, yağın, pendirin ailənin ehtiyacından artıq olanını bazara çıxarırlar. Aybəniz müəllim deyir ki, istifadə etdiyimiz və bazara çıxardığımız məhsuldan əlavə ləzzətlərinə görə hamının əl-əl axtardığı şor və qurud da hazırlayıram.

Ordubad torpağında az ailə tapılar ki, evində limon ağacı yetişdirməsin. Aybəniz müəllim də Əkbər əmi ilə bu torpaqların brend məhsuluna çevrilmiş limonun yetişdiricilərindəndir. Həmsöhbətim limonçuluqla məşğul olmağa başlamasını bu cür xatırlayır: – Qonşularımdan biri xəstələnmişdi, təzyiq xəstəsi idi. Dərsdən qayıdanda məktəbin yaxınlığında yaşayan və limon yetişdirən qonşudan bir limon alıb gətirməyimi istədi. Limonun birinin yeddi manata satıldığını öyrənəndən sonra öz-özümə sual verdim ki, məgər mən bir limon tingi yetişdirə bilmirəm ki, gedib limon da alım? Fikirləşdim ki, burada yetişir, niyə mən də yetişdirməyim, niyə mən də məşğul olmayım bu sahə ilə? Özünün limona qarşı allergiyası olsa da, Əkbər əminin köməyi ilə bu işin öhdəsindən kifayət qədər yaxşı gələ biliblər. Ordubad limonu Əkbər əminin əllərindən, Aybəniz müəllimin qayğısından yeni həyat tapır.

Aybəniz müəllim deyir ki, biz ailə olaraq tamıq, bütövük. Birimiz olmasaq, elə bil ki, bədənin bir qanadı, qolu yoxdur. Hər nə ediriksə, ikimiz birlikdə edirik. Nə müvəffəqiyyətim varsa, sinif yoldaşım, parta yoldaşım və həyat yoldaşıma – Əkbərə borcluyam. Böyütdüyümüz üç övladımızın yaxşı təhsil almasında da, mənim uğurlarımda, əməyimdə də onun payı, zəhməti çoxdur.

*Böyük mənəviyyata malik bu zəhmətkeş ailə ilə söhbət etmək, xüsusilə qəhrəmanım Aybəniz müəllimin zəhmətkeşliyini, dünyaya baxışını yaxından müşahidə etmək məndə çox böyük təəssürat yaratdı. Və bildiyim bir şeyi onlar mənə yenidən xatırlatdı: insan yaşından, cəmiyyətdəki statusundan, peşəsindən, yaşadığı yerdən asılı olmayaraq, hər zaman böyük amallar, təmiz duyğular uğrunda mübarizə aparmağı bacarmalıdır. Cəmiyyətin layiqli üzvü olmağa çalışmalı və bu yolda yeni davamçılar yetişdirmək üçün sabaha inamla baxmalıdır. Elə Əkbər əmi və Aybəniz müəllim kimi...*

**Məmməd BABAYEV**

## İntellektual oyunlar üzrə çoxnövçülük turnirinin açılışı olub



Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun dəstəyi, Naxçıvan Dövlət Universitetinin Tələbə-Gənclər Təşkilatının təşkilatçılığı ilə onlayn keçirilən açılış tədbirində universitetin rektoru, dosent Elbrus İsayev çıxış edərək qeyd edib ki, tələbə təşkilatlarının fəaliyyəti nəticəsində tələbələr respublikada keçirilən intellektual oyunlar, müxtəlif istiqamətli müsabiqələr, beynəlxalq əhəmiyyətli yarışlarda muxtar respublikanı layiqincə təmsil edir və nailiyyət əldə edirlər.

Onlayn tədbirdə Naxçıvan Müəllimlər İnstitutunun rektoru, dosent Azad Novruzov, "Naxçıvan" Universitetinin rektoru, dosent Nurlana Əliyeva, Naxçıvan Dövlət Texniki Kollecinin direktoru, aqrar elmlər üzrə fəlsəfə doktoru Asəf Ruşanov, Naxçıvan Tibb Kollecinin direktoru Sona Məmmədova, Naxçıvan Musiqi Kollecinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Məhəbbət Babayeva çıxış ediblər. Diqqətə çatdırılıb ki, belə yarışlar gənclərin maariflənməsi, dünyagörüşünün artırılması baxımından böyük önəm kəsb edir.

Naxçıvan Dövlət Universiteti Tələbə-Gənclər Təşkilatının sədri Əziz Qasımov turnir haqqında məlumat verib. Bildirilib ki, ali və orta ixtisas təhsili müəssisələrinin hər birindən 8 komanda turnirin I mərhələsində iştirak edəcək. Yarışlarda hər bir təhsil müəssisəsindən 2 komanda II mərhələyə keçmə haqqı qazanacaq.

Turnirin I mərhələsində öz bilik və bacarıqlarını sınayan komandalar II mərhələyə keçmə haqqı qazanıblar.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Güləş üzrə muxtar respublika birinciliyinə yekun vurulub





*Dekabrın 22-də Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə keçirilən yeniyetmələr (2005-2007-ci il təvəllüdlər) arasında sərbəst güləş üzrə muxtar respublika birinciliyinə yekun vurulub.*

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Güləş Federasiyasının birgə təşkil etdiyi birincilikdə şəhər və rayonlardan 6 komanda olmaqla, ümumilikdə, 70-dən çox güləşçi mübarizə aparıb. İki gün davam edən birinciliyin məqsədi muxtar respublikada sərbəst güləş idman növünün inkişafı, idmançıların yarış təcrübəsinin artırılması və perspektivlilərin aşkar edilərək yığma komandaya cəlb edilməsindən ibarət olub.

Dünya Güləş Birliyinin mövcud qaydalarına əsasən keçirilən yarışda idmançılar 10 çəki dərəcəsində qalibi müəyyənləşdirməyə çalışıblar. Birinciliyin yekun nəticəsinə əsasən Tuqay Qəhrəmanlı (42 kiloqram, Naxçıvan), Məhəmməd İsmayılov (45 kiloqram, Naxçıvan), Namiq Əlizadə (48 kiloqram, Naxçıvan), Yəhya Paşayev (51 kiloqram, Naxçıvan), İlkar Əlican (55 kiloqram, Naxçıvan), Elnur Məmmədov (60 kiloqram, Naxçıvan), Onur Əlizadə (65 kiloqram, Naxçıvan), Daşqın Rəsulov (71 kiloqram, Şərur), Murad Hətəmli (80 kiloqram, Şərur) və Süleyman Məmmədov (92 kiloqram, Naxçıvan) öz çəki dərəcələrində bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək zirvəsinə qalxıblar.

Qaliblər diplom, medal və hədiyyələrlə mükafatlandırılıblar. Mükafatları Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədri Azər Zeynalov və Naxçıvan Muxtar Respublikası gənclər və idman naziri Ramil Hacı təqdim ediblər.

Sonda xatirə şəkli çəkdirilib.

**"Şərq qapısı"**

***Gözəlliyi sazla-sözlə tərənnüm edən, hər misrasında dərin hikmətlər, saf duyğular, munis hisslər, sirli-sehrli mənzərələr gizlənən Azərbaycanın unudulmaz nəğməkarı, aşıq poeziyamızın şah damarı, yurduna qırılmaz tellərlə bağlı olan yurd sevgili sənətkarı Aşıq Ələsgərin gözəlliyə aşiqliyindən bəhs etməyə sözlər acizdir. Çünki aşıq sənəti dünyasının sönməyən günəşi Aşıq Ələsgər insan gözəlliyini ilahi bir nemət olaraq qəbul edib. Onun göylərdən yerlərə endiyini hər misrasında şövqlə anladıb. Ustadın şeirlərini oxuduqda sanki bəhs etdiyi aləmin sözlə yaradılmış tablosunu görürsən. İnsan gözəlliyini, ilk növbədə, onun daxili dünyasında axtaran, mənəvi gözəlliklə fiziki gözəlliyin vəhdətindən, harmoniyasından ilham alan Aşıq Ələsgər "Gözələ" müxəmməsində: "Gözəlliyi cəm veribdi Xaliqü sübhan gözələ!" – söyləyib. Ustad sənətkar qadın gözəlliklərini vəsf edərkən elə bədii obrazlar yaradıb ki, insan xəyalında ecazkar bir mənzərə qarşısında dayanıb onu heyranlıqla izləyə bilir. Həmin obrazlar ədəbiyyatımızda gözəllik simvolları kimi yaşamaqdadır.***



### Aşıq Ələsgər – 200

## Gözəllik aşiqi

Ələsgər şeirinin hər birində obrazlı bənzətmələr, ifadələr və eyhamlar, bədii tapıntılar, mənalı məcazlar onun poetik qüdrətindən, dilə, sözə hakimliyindən, özünəməxsus dərin təxəyyül, düşünmə tərzindən xəbər verir. Bu keyfiyyətlərin hər aşığa, hər şairə nəsib olmadığı da məlumdur. Məsələn, aşığın "Eyləmişəm" rədifli qoşmasının bir bəndində:

*Ala gözlüm, səndən ayrı düşəli*
*Hicranın qəmiylə kef eyləmişəm.*
*Ah-vay ilə günüm keçib dünyada,*
*Qəm satıb, dərd alıb nəf eyləmişəm.*

*"Hicranın qəmiylə kef etmək", "Qəm alıb, dərd satmaq"* kimi obrazlı, eyni zamanda təzadlı bədii ifadələr həsrətin, onun insan qəlbində yaratdığı qəmli, kədərli hisslərin, duyğuların təsir gücünü yüksək poetik bir zirvəyə qaldırır. Bu zirvədən baxarkən aşığın (aşiqin) istedadı (qələmi) qarşısında baş əyirsən.

Aşıq Ələsgər çox düzgün olaraq sevgini, məhəbbəti müqəddəslik fövqünə qaldırır. İlahi sözün gizli çalarlarından istifadə edərək bu ali duyğulara oxucuda bir daha sevgi yaradır. Sağlığında məhəbbətinin varlığından zövq alan, nəcib hisslər keçirən, ona itaət edən aşiq Tanrı dərgahında da sevgisinin xəyali təmasından məmnun qalır, ruhu şad olur:

*Ələsgərəm, yandım eşq ataşında,*
*Gözüm qaldı kirpiyində, qaşında.*
*Qazdır məzarımı çeşmə başında,*
*Sal sinəm üstündən yol, incimərəm.*

Sevgiyə bundan böyük sədaqət və ehtiram ola bilməz və Aşıq Ələsgər yaradıcılığı məhz belə ifadə formaları ilə dünən də sevilib, bu gün də sevilir, sabah da seviləcək.

Yaradıcılığa Səhnəbanunun eşqi ilə başlayan Ələsgərin sözlə rəsmlərini cızdığı gözəllər, onlara verilən qiymət, gözəlliyin tərənnümündə işlənən ifadələr şirindir, ətirlidir, dağ havalı, gül-çiçək soraqlıdır:

*Tuti dilli, sərvboylu Salatın,*
*Yoxmu mərhəməti bu səltənətin?!*
*Göndər gəlsin Ələsgərin xələtin,*
*Eyləmə əməyin zay, Sarıköynək!*

Aşıq Ələsgərin əsərlərində adları çəkilən Əsli, Pərzad, Gövhər, Güləndam, Güllü, Müşgünaz, Telli, Gilə, Həcər, Mələk və başqa gözəllər sadə kəndli qızları idi. Onlar sadə olduqları qədər də ürəyi təmiz, ismətli, həyalı, məhəbbətlərinə sədaqətli və mehribandırlar.

Ələsgərin hər vəsfinin müqabilində hamı hədsiz razı qalırdı. Çünki tərifin yüksək sənətkarlıqla deyilməyi ilə yanaşı, aşığın qəlbinin təmizliyinə olan inam, onun qız-gəlinləri ana-bacı gözündə görməyi idi. "Giləyə" rədifli müxəmməsində gözəli ilhamla tərifləyən sənətkar ona: *"Həm bu dünyada bacımdı, həmi qiyamətin günü"*, – deyərək səmimi qardaş münasibətini bildirir.

Aşıq Ələsgərin hamıya məlum olan məşhur "Düşdü" rədifli qoşmasının məzmunundan aydın olur ki, o, *"Çərşənbə günündə, çeşmə başında"* gördüyü gözəl bir qıza vurulmuşdur. Qızın baxışları, qəmzələri onun varlığına hakim kəsilmiş, qanına, iliyinə işləmiş, onu sehrləmişdir. *"Həm gözəl, həm əhli-dil"* olan bu qızla ailə qurmağı xəyalına gətirən, onun eşqi ilə pərvazlanan aşiq, qızın nişanlı olduğunu biləndə, "qol-qanadı" sınmış, ümidi boşa çıxmış, nə qədər çətin olsa da, bu fikrindən əl çəkmişdir. Aşıq (aşiq) elin, nənə-babaların məhəbbət aləmində sabitləşdirdiyi, qoruyub saxladığı müqəddəs adət-ənənəyə sadiq qalmışdır. Aşıq Ələsgər gözəlləri vəsf edərkən bənzətmələrdə çox zaman klassik şeir ənənələrindən yerli-yerində və çox ustalıqla istifadə edir. Amma sabitləşmiş bənzətmələrdən fərqli olaraq aşıq gözəli təriflərkən bəzən də elə ifadələr işlədir, elə müqayisələr aparır ki, bunlara yalnız ulu ustadın yaradıcılığında rast gəlirik. *"Camalın şoxundan cismim əridi, Zülfündən üstümə sayə düşərmi?!"* Bəzən də bənzətmələrdən istifadə eləməyən sənətkar el gözəli barəsində elə fikir söyləyir ki, gözəlin siması bütün gözəlliyi ilə canlanır. Bu da Aşıq Ələsgər yaradıcılığının daha bir üstün cəhətidir.





Aşıq Ələsgər təriflədiyi qız-gəlinlərin zahiri gözəlliklərini, milli geyim və bəzəklərini elə məharətlə poetikləşdirir ki, gözlərimiz önündə rəssamlarımızın çox asanlıqla yarada biləcəyi füsunkar Azərbaycan gözəlinin canlı portreti dayanır. Bu portretə baxarkən (şeiri oxuyarkən) həm gözəlliyin ülviyyətini görürsən, həm də bu ülviyyəti qələmə alan sənətkarın böyüklüyünü. Və düşünürsən: Heç bir təhsili olmayan şair gözəlliyi təsvir edərkən işlətdiyi ifadələri necə tapıb? O, dilimizin zənginliyinə vaqif sənətkar imiş... Onu da vurğulamaq gərəkdir ki, Aşıq Ələsgər bu gözəlliyi, hər şeydən öncə, onun mənəvi aləmində axtarır. Təriflədiyi gözəllər zahirən nə qədər gözəl olsalar da, aşıq onların bu gözəlliyini "cəm" hesab eləmir, natamam sayır. Elə ki zahiri gözəlliklə mənəvi gözəlliyi vəhdət halında gördü, o zaman *"Gözəlliyi cəm veribdi Xaliqü sübhan gözələ!"* – deyir. Sevgilisinə qovuşmayıb məhəbbət əzabının bütün acılarını yaşamış el sənətkarı gəzdiyi yerlərdə gözəllərin dözülməz əzablara məruz qaldıqlarını görəndə susa bilmir, qələmi və qəlbi ilə bu haqsızlığa qarşı üsyan edir, onların qədirbilməz əlində qaldığını, "tərlanın sara dustaq" olduğunu bədii şəkildə söyləyir; ərlərini isə "bimürvət", "nainsaf", "dilbilməz", "yağı", "ağıldan kəm" adlandırır, onları "ölməz", "utanmaz" sözləri ilə lənətləyirdi. Bununla şair bir daha gözəlliyin həm də müqəddəs olduğunu təlqin edirdi. "Yazıq" rədifli qoşmasının məzmunundan aydın olur ki, məşəqqətli günlər keçirən bir gözəlin acı taleyi aşığı düşündürür. Qoşmanın qəhrəmanı olan gəlin kimi, onun "qəmli könlünü", "müşkül halını" düşünən aşıq da özünü yazıq hesab edir, şeirin sonunda: *"İki könül bir-birini tutmasa, Alan da yazıqdı, gələn də yazıq"*, – deyir. Məlum situasiyanın bundan dəqiq ifadəsi ola bilməz!

Ustad yaradıcılığında gözəllərə yanaşma, edilən tərif, verilən qiymət tamam ayrı bir yanaşmadır. Onun aləmində gözəl gözlər "Ala gözlər"dir.

Ala gözlər Ələsgər yaradıcılığında olduqca tez-tez hallanır, bəzən düşünürsən, bəlkə də, alagözlü Səhnəbanuya olan sonsuz eşqi, aşiqliyi, divanəliyi onu "Ala gözlər"i ən uca mərtəbəyə qaldırmağa imkan vermişdir. Bəlkə, yox, bu, elə belədir ki, var, "Ala göz" aşığın-aşiqin yaradıcılığının ən yüksək zirvəsini fəth etmişdir.

Dədə Ələsgər yaradıcılığının digər bir adı isə halallıqdır, səxavətdir, kəramətdir. Səxavətə, kəramətə verilən qiymət – budur ustad Ələsgərin mənəviyyatı. Və məhz öz mənəviyyatının səsi ilə yaratdığı bir-birindən gözəl şeirləri ona həm də əbədiyyət verib.

Məhəbbət mövzulu şeirlərini Aşıq Ələsgər yalnız Səhnəbanuya yox, müxtəlif gözəllərə həsr edib. Amma bu heç də ənənədən gələn eşq təliminin məzmun və mahiyyətini dəyişməyib. Aşıq Ələsgər vəsf etdiyi gözəli sıradan bir nəfər kimi yox, Tanrı qüdrətindən yaranmış bir gözəl kimi təsvir edir:

*Sərvboylu mələkzada,*
*Camalından içdim bada.*

Camalından nur badəsi içilən və Tanrı nuru ilə əlaqələndirilən gözəli ustad sənətkar Quran ayəsi ilə müqayisə etməkdən çəkinmir. O dövr üçün belə ifadə işlətmək böyük cəsarət tələb edirdi: yəni xurafatın, dini fanatizmin at oynatdığı bir dövrdə:

*Həcər xanım, qaşın, gözün təhrində*
*Xətt yazsam, Quranda ayə düşərmi?!* –

deməsi aşığa başqa cür də başa gələ bilərdi. Ancaq sənətkarın ustalığı da məhz onda idi ki, ona çırpılacaq ittihamları öz ifadə tərzi ilə özündən uzaqlaşdıra bilmişdi.

Eşq oduna yanan aşiqin gecə-gündüz Tanrı adını zikr etməsi Haqqa gedən yolun məhəbbətdən keçməsinə işarədir. Bu yolda aşiqin başlıca niyyəti haqqı nahaqdan ayırmaq, doğrunu tapa bilməkdir:

*Yeri, göyü, ərşi, kürsü yaradan,*
*Adil padşahsan, ədalət eylə.*
*Könlümün nöqtəsin çıxart qaradan,*
*Məni doğru yola dəlalət eylə.*

Düşünürsən: Nədir doğru yol, aşiq hansı yolu tutmaq istəyir? Bu sualın da cavabı birmənalıdır: insan xarakteri üçün mənfi keyfiyyətlər sayılan nəfsi öldürmək, şeytan felinə uymamaq. Belə mənfi cəhətləri tənqid edərkən aşıq didaktikadan-nəsihətçilikdən uzaqdır; bu tipli şeirlərində də o İlahi sözün qüvvəsindən ustalıqla istifadə edir.

*Aşıq Ələsgər yaradıcılığı elə bir dəryadır ki, bu dəryanın dərinliklərinə endikcə real dünyadan uzaqlaşaraq sonsuzluğa qovuşursan bir anlıq. Bu sonsuzluq, əslində, elə yaşadığımız reallıqdır; sadəcə, Ələsgər istedadının gücü bizi reallıqla sonsuzluğun sərhədinə aparır. Və elə Ələsgər yaradıcılığının gücü də bundadır. Belə olmasaydı, Aşıq Ələsgər haqqında onlarla monoqrafiyalar yazılmazdı, dissertasiyalar müdafiə edilməzdi, həmişə insana təzəlik, təravət bəxş edən şeirlərinə mahnılar bəstələnməzdi, oxucular tərəfindən bu qədər sevilməzdi, əbədilik yaşamaq hüququ qazanmazdı. Onun şeirləri real həyat həqiqətini bütün çalarları ilə ifadə etmək baxımından ədəbiyyatımızın xəzinəsidir.*

**Gülcamal TAHİROVA**

## Praktik məşğələ keçirilib

*Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən "İqtisadi inkişafda gömrük xidmətinin rolu və yeni startap layihələri" mövzusunda praktik məşğələ keçirilib.*



Sədərək Gömrük İdarəsində təşkil olunan tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə Naxçıvan Dövlət Universiteti Dövlət Gömrük Komitəsinin hamiliyinə verilmiş Dünya iqtisadiyyatı, eləcə də Beynəlxalq ticarət və logistika ixtisaslarında təhsil alan və startap komandalarında təmsil olunan tələbələri iştirak edib.

Komitənin İnnovasiya Mərkəzinin rəhbəri, gömrük xidməti polkovnik-leytenantı Rahil Tahirli ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinin Naxçıvanda startap hərəkatının genişlənməsi, innovasiyaların dəstəklənməsi, kadr hazırlığı işinin səmərəli təşkili baxımından mühüm əhəmiyyətə malik olduğunu vurğulayıb. İqtisadi sahədə innovativ layihələrin hazırlanması ilə bağlı görülmüş işlərin nəticəsi olaraq bu vaxta qədər 6 layihə üzərində iş aparılıb, uğurlu layihələr mükafatlandırılıb və "Startap Naxçıvan" portalına təqdim olunub. Universitetdə cari tədris ilindən açılan Beynəlxalq ticarət və logistika ixtisasının tələbələri də yeni startaplar üzərində işləyirlər.

Komitə əməkdaşlarından gömrük xidməti leytenantı Turqut Abbasov və polkovnik-leytenant Emin Eylazov muxtar respublika gömrük orqanlarının fəaliyyəti, gömrük işinin səmərəli təşkili, gömrük nəzarəti və rəsmiləşdirilməsi, vətəndaşların, malların və nəqliyyat vasitələrinin gömrük keçidi, gömrük orqanlarının hüquq-mühafizə fəaliyyəti barədə ətraflı məlumat veriblər.

Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı, dosent Əşrəf Ələkbərov qeyd edib ki, ali təhsil ocağı ilə gömrük xidməti arasında qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin qurulması və birgə tədbirlər planının həyata keçirilməsi tələbələr üçün səmərəli innovasiya mühitinin formalaşması və innovativ təkliflərin dəyərləndirilməsi üçün əlverişli şərait yaradır.

Sonra tələbələri maraqlandıran suallar cavablandırılıb, Sədərək dövlət sərhəd-buraxılış məntəqəsinin müasir infrastrukturu və iş fəaliyyəti ilə tanışlıq olub.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

*Muxtar respublikamızın aparıcı elm ocaqlarından biri olmaqla Naxçıvan Dövlət Universitetində yeni tədqiqat əsərlərinin meydana çıxması və həmin əsərlərin təqdimetmə mərasimlərinin keçirilməsi artıq ənənə halını alıb. Ali təhsil müəssisəsinin İncəsənət fakültəsinin Təsviri incəsənət kafedrasının baş müəllimi Siddiqə Hacıyevanın “Naxçıvan xalçaları və tikmələri” adlı dərs vəsaitinin də təqdimetmə mərasiminin keçirilməsi bu ənənənin məntiqi davamıdır.*

*Yeni nəşrlər*

# Naxçıvan xalçaçılıq məktəbi inkişafının yeni mərhələsində




Elmi ictimaiyyətə təqdim olunan bu kitab bir çox cəhətdən dəyərləndirilməlidir. Qədim türkün yaratdığı sənət növlərindən biri olan xalçaçılığa dair xeyli fundamental tədqiqat əsərləri işıq üzü görüb. Bununla belə, Siddiqə Hacıyevanın “Naxçıvan xalçaları və tikmələri” adlı dərs vəsaitində biz tamamilə təhlillərin Azərbaycançılıq ideologiyası əsasında, həm də müasir elmi meyarlara cavab verəcək səviyyədə aparıldığını görürük. Məsələ ondadır ki, Azərbaycan xalçası dünyanın bir çox məşhur muzeylərində ən qiymətli sənət nümunəsi olaraq saxlanılmaqdadır. Bu baxımdan Siddiqə Hacıyevanın bəhs etdiyimiz dərs vəsaiti xalq estetik təfəkkürünün mühüm bir istiqamətinə həsr olunması nöqteyi-nəzərindən olduqca dəyərlidir. İlk olaraq onu qeyd edək ki, vəsait xüsusi formada tərtib olunub. Belə ki, müəllif ümumi müddəalardan konkret faktlara keçidi nəzarətdə saxlamağa çalışıb. Kitabda Naxçıvan xalça və tikmə sənətini özündə əks etdirən çoxsaylı fotolarla qarşılaşırıq ki, həmin fotolarda xalçaçılıq sənətinə dair faktlar elmi məntiqlə təhlil olunub, bu zəmində Naxçıvan sənətşünaslığı yeni elmi müddəalarla zənginləşdirilib.

Təqdirəlayiq haldır ki, dərs vəsaitində verilmiş Naxçıvan xalçaları və tikmələrinə dair mədəniyyət nümunələrinin bir çoxu Siddiqə xanım tərəfindən ilk dəfə öyrənilən sənət əsərləridir. Bu mənada, kitab Naxçıvan xalçaçılıq məktəbi sirlərinin yeni nəsillərə öyrədilməsi baxımından çox qiymətli bir əsərdir. Yeni nəşr Naxçıvan xalçaşünaslığı elmi tarixinə qiymətli töhfə sayıla bilər.

Dərs vəsaitində müəllif ayrı-ayrılıqda “Xalçaçılıq naxışlarının kökü – Gəmiqaya təsvirləri”, “Xalçaçılıq tariximizdən”, “Naxçıvanda xalça sənətinin inkişafı”, “Boyaqçılıq”, “Xalçaların təsnifatı”, “Naxçıvan xalçaları” (rayonlar üzrə), “Xalçalarda işlənən ornamentlər”, “Naxçıvan tikmələri” (təkəldüz, saya, güləbətin, muncuqlu, qurama, şəbəkə tikmə) adlı bölmələr üzrə Naxçıvanın xalçaçılıq məktəbinin qədim dövrdən bu günümüzə qədər olan tarixini, xalqın milli təfəkküründən süzülüb gəlməsini və gələcək nəsillərə bu sənətin aşılanmasını sistemli şəkildə sənətşünaslıq elmi müstəvisində təhlil obyektinə çevirib.

Siddiqə Hacıyeva xalçaçılıq naxışlarının kökünü sivilizasiyanın mərkəzi Naxçıvanın Gəmiqaya təsvirləri ilə bağlamış konkret faktları göstərib ki, bu təsvirlərdəki motivlərə o dövrün bir çox sənət nümunələrində, eləcə də xalçalarımızda rast gəlinir. Müəllif Gəmiqaya rəsmlərində rast gəlinən elementlərin piktoqrafik və ideoqrafik mahiyyətli xalça naxışlarında da əks olunmasını diqqət önünə gətirib və xalçaçılıq sənətimizin kökündə məhz Gəmiqaya təsvirlərinin izi olduğunu birbaşa oxucunun diqqətinə çatdırıb.

Diqqətə çəkilən əsas məqamlardan biri Ovçulartəpədə aşkar edilən küpələrin üzərindəki təsvirlərin eradan əvvəl V minillikdə inkişaf etmiş səviyyədə olduğu göstərilib, Gəmiqayada müxtəlif piktoqrafik səciyyəvi rəmzi işarələr – dairələr, dördbucaqlar, üçbucaqlar, eləcə də çarxi-fələk və sair təsvirlərin həkk olunması qeyd edilib. Xatırladaq ki, təsvirlər içərisində, xüsusilə seçilən çarxi-fələk (dörd ünsür) ünsürü Naxçıvan xalçalarının bədii tərtibatında da geniş yayılıb. Müəllifə görə, hazırda Şərur rayonunun Maxta kəndində dövrümüzə qədər salamat qalmış orta göl hissəsindəki çarxi-fələk elementli xalça araşdırmalara görə Azərbaycanda təkdir. Xalça sənəti nümunələri üzərində rastgəlinən bu kimi elementlər Naxçıvan mədəniyyətinin Gəmiqayadan başlandığını bir daha təsdiqləyir.

“Xalçaçılıq tariximizdən” adlı bölmədə müəllif ulu xalçaçılıq sənətinin tarixinə nəzər yetirib, qədim türkün vətəni Altayda “Pazırık” (Basırıq) deyilən yerdə V kurqandan tapılan və “Pazırık xalısı” adı ilə məşhur olan türkün qədim xalçası haqqında ətraflı məlumat verib, bu xalça üzərindəki elementləri tarixşünaslığın və sənətşünaslığın vəhdətində ətraflı araşdırmaya cəlb edib.

Dərs vəsaitinin “Naxçıvanda xalça sənətinin inkişafı” adlı bölməsində Siddiqə Hacıyeva “Əcaib-əd-dünya” əsərindən, “Hüdud-əl-Aləm” adlı traktatından sitatlar gətirib, bu sənətin Naxçıvanda inkişafının tarixinə ətraflı nəzər salıb. Dövlətin birbaşa diqqət və qayğısı sayəsində öz inkişafının yeni mərhələsini yaşayan Naxçıvan xalçaçılıq sənətində mühüm işlər görülməsi, xüsusilə əyani fotoşəkillər oxucunun diqqətinə çatdırılıb.

Dərs vəsaitinin “Boyaqçılıq” adlı bölməsində yunan tarixçisi Herodotun Naxçıvanda toxuculuq və boyaqçılığın xüsusi yer tutduğunu göstərən fikirləri qeyd olunub: “Bu yerlərin meşələrində elə ağaclar bitir ki, yerli əhali onların yarpaqlarını su ilə qarışdırıb paltarlarına naxış vurur. Bu naxışlar silinmir, parça köhnələnə qədər qalır”. Siddiqə Hacıyeva bu fikrə əsaslanıb belə qənaətə gəlir ki, təbiətdən alınan həmin boyaqlar istər xalçalara, istərsə də parçalara parlaq rəng verməklə yanaşı, onun qalıcılığını da təmin edib. Müəllif, xüsusilə vurğulayır ki, xalçanın keyfiyyəti ilə yanaşı, onun rəng çalarları da estetik baxımdan mükəmməlliyə xidmət edib.

Müəllif bir maraqlı məqama da toxunur. Bildirir ki, Naxçıvan sənətkarları boyanmış iplikləri boyağın möhkəmləndirilməsi üçün ən əsas xammal kimi duzdan istifadə edirdilər. Özündə 84 minerallı birləşdirən qiymətli və faydalı Naxçıvan duzu hələ qədim dövrlərdən mədəniyyətlərin mübadiləsinə təsir göstərdiyi kimi sənətdə də əhəmiyyətli rolu olub. Belə ki, iplərin bərkidilməsində Azərbaycanın digər bölgələrində zəydən istifadə edildiyi halda Naxçıvanda, əsasən, duzdan istifadə olunurdu.

Öyrənirik ki, Naxçıvanın Culfa bölgəsi və ətrafının, həmçinin təbii boyaq bitkisi – boyaqotu (marena) və “qırmızı böcək” adlanan, olduqca bahalı və qırmızı boya verən xüsusi qiymətli həşərat ilə zənginliyi burada xalçaçılığın, ümumiyyətlə, toxuculuğun inkişafını şərtləndirən amillərdən biri olub.

“Xalçaların təsnifatı” adlı bölmədə müəllif Naxçıvan xalçaçılıq məktəbinə daxil olan xalça növlərini çox sadə, anlaşıqlı bir dillə sistemli şəkildə göstərib.

“Naxçıvan xalçaları” (rayonlar üzrə) bölməsində müəllif Naxçıvanın ayrı-ayrı rayonlarında toxunmuş xalçaları növ, kompozisiya, naxış elementləri və sair cəhətdən maraq dairəsinə cəlb edib və sistemli şəkildə təhlil obyektinə çevirib. Rayonlar üzrə hər bir xalça nümunəsinin fotosu, onun üzərində bədii elementlər və sair Siddiqə Hacıyeva tərəfindən dəqiqliklə araşdırılıb.

Müəllif dərs vəsaitinin “Xalçaçılıqda işlənən ornamentlər” bölməsində sənət abidələri üzərində ornament motivi, onun bədii xüsusiyyət və məzmunu haqqında müxtəlif məlumatlara bir çox orta əsr Şərq rəssamı və sənətşünasının əsərlərində də rast gəlindiyini söyləyir.

Əsərin dəyərini artıran amillər içərisində müqəddəs 7 rəqəminin ornamentlər sırasında mənalandırılmasıdır. Təbii ki, ən önəmli mənbələr sırasında öndə gedən Azərbaycanın zəngin istedadlar kəhkəşanında XVI əsrin məşhur miniatürçü rəssamı Sadiq bəy Əfşarın “Qanun-üs-süvər” (“Təsvirlər qanunu”) adlı risaləsində qeyd olunan ornament növlərinin 7 əsas formasının göstərilməsidir. Bunların islimi, xətai, nilufər, firəngi (Avropa tipli), bulud, vağ (əfsanəvi ağac adı) və bəndi rumidən (Bizans toru) ibarət olduğu qeyd edilir.

Maraqdoğuran məqamlardan biri də dərs vəsaitində ilk dəfə ornamentlərin müəllif tərəfindən ağac üzərində yağlı boya ilə işlənməsidir. Kitabın səhifələrini vərəqlədikcə xüsusi incəliyi ilə seçilən bu sənət nümunələrinin də şahidi oluruq.

Əsərin sonuncu bölməsi “Naxçıvan tikmələri” adlanır. Bu bölmədə Naxçıvanın qədim tikmə sənətindən tutmuş müasir dövrümüzdə işlənmiş tikmə nümunələrinə qədər bütün incə detallar müəllif tərəfindən xüsusi dəqiqliklə dərs vəsaitinə təhlil olunmuş şəkildə daxil edilib. Müəllif göstərir ki, XII-XIII əsrlərə aid edilən arxeoloji qazıntılar zamanı Naxçıvan yaxınlığından Xaraba Gilan şəhərinin dağıntıları arasında tapılmış tikmə nümunəsi ən qədim tikmə nümunəsi hesab edilir. Burada saya, şəkəri rəngli yerlikli kətan parça üzərində kalliqrafik təsvirlər yer alır.

Müəllif ilk dəfə Naxçıvan Dövlət Universitetinin Təsviri incəsənət müəllimliyi ixtisası üzrə təhsil alan tələbələrinin müxtəlif tikmə nümunələrindən ibarət işlərini də dərs vəsaitinə daxil edib. Qeyd etməyi özümüzə borc bilirik ki, son dövrlər bu sənətin yaşadılması istiqamətində Təsviri incəsənət kafedrasının baş müəllimi Siddiqə Hacıyevanın danılmaz xidmətləri olub. Onun birbaşa rəhbərliyi ilə təsviri incəsənət kafedrasında Xalçaçılıq dərnəyi fəaliyyətə başlayıb.

Siddiqə Hacıyevanın “Naxçıvan xalçaları və tikmələri” adlı dərs vəsaiti həm də maraqlı və gözoxşayan dizaynı ilə diqqəti cəlb edir. Naxçıvan xalçalarının öyrənilməsində və təbliğində yeni nəşrin böyük faydası olacağına inanır, müəllifə yeni uğurlar arzulayırıq.

**Toğrul CƏFƏRLİ**
***Naxçıvan Dövlət Universitetinin Təsviri incəsənət kafedrasının müəllimi***

*Əfsanəyə dönən ömürlər*

# Hünər və qəhrəmanlıq zirvəsinə ucalan igid



Ümidlər, xəyallar həqiqətə çevrildi. Xalqımızın ulu öndərinin ***“Mən ona özüm qədər inanıram. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək”*** kəlamının deyildiyi vaxtdan cəmi 17 il ötsə də, zaman bir daha böyük Heydər Əliyevin – o siyasət dahisinin bütün bəlalardan xilas edərək ayağa qaldırdığı Azərbaycanı əmin əllərə təslim etdiyini təsdiqlədi. Xalqına arxalanan Müzəffər Sərkərdə dünyaya qüdrətli ordusu, yenilməz siyasi-diplomatik gücü ilə meydan oxudu. İllərdir, xəyalı ilə yaşadığımız həmin gün gəldi – tariximizin şanlı səhifələri igid Azərbaycan əsgərinin qəhrəmanlığı, şücaəti, qanı ilə yenidən yazıldı. Vətən müharibəsi başlayan gündən ordumuz torpaqlarımızı düşməndən qarış-qarış aldı. Hər qarış torpaq uğrunda onlarla igid canından keçdi. Onlar Vətəni canlarından əziz bilib onun bütövlüyü bərpa olunsun deyə, günlərlə keçilməz yolları acsusuz keçib imkansızı həqiqətə çevirdilər. Həmin igidlərdən biridir qədim Şərur diyarının qəhrəman oğlu İlkin Rzayev. Onu döyüş yoldaşları “Murov aslanı” çağırırlarmış... Mayor İlkin Rzayev 1984-cü ildə Şərur rayonu Ələkli kəndində anadan olmuşdu. 1993-cü ildə onun atası, əmisi I Qarabağ müharibəsində könüllü şəkildə fəal iştirak ediblər. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olan və 2006-cı ildə məktəbi bitirən İlkin Rzayev hərbi xidməti zamanı daim yüksək hərbi bacarıqlarına görə fərqlənir, mayor rütbəsinə kimi yüksəlir. O, xidməti dövründə “Silahlı Qüvvələrin yaranmasının 90 illiyi”, “Hərbi xidmətdə fərqlənməyə görə 3-cü dərəcəli”, “Qüsursuz xidmətə görə 3-cü dərəcəli”, “Silahlı Qüvvələrin yaranmasının 95 illiyi”, “Qüsursuz xidmətə görə 2-ci dərəcəli” medalları ilə təltif edilib. Onun son hərbi vəzifəsi döyüş hazırlığı bölməsinin rəisi olmuşdu.

2016-cı ildə Aprel döyüşlərində xüsusi hünər göstərən İlkin Vətən müharibəsində Murovdağ yüksəkliyi uğrunda döyüşlərdə iştirak edib. Həmin döyüşlərdə xüsusi qəhrəmanlıq göstərən İlkin Rzayev düşmən gülləsinə tuş gəlir, əbədiyyətə qovuşur. Onun şəhidliyə ucaldığı yer sıldırımlar və çətin relyef olduğuna görə cənazəsini götürmək də asan olmur. Hətta onu götürməyə cəhd edən bir döyüş yoldaşı da snayperlə qolundan vurulur. Oktyabrın 2-də şəhidlik məqamına ucalan qəhrəman iki ay Murovun bəyaz qarına sarılıb uyuyur. Günlərlə gözü yolda qalır iki körpənin, bir ananın, bir gəlinin. 72 gün sonra o, gəlişi ilə ürəklərdə bir məşəl yandırır. Elə bir məşəl ki o, heç vaxt sönməyəcək… Bu məşəl təkcə Əli ilə Nurun yox, bütün azərbaycanlı balaların yoluna işıq salacaq. Onun və onun kimi üç min oğulun yazdığı Qarabağ dastanı xalqımız üçün əbədiyyən qürur mənbəyi olacaq. Dekabr ayının 18-də İkinci Fəxri Xiyabanda dəfn edilən mayor İlkin Rzayevdən Vətəninə əmanət iki övladı, bir də tarixin səhifələrinə yazılan igidlik dastanı yadigar qalır.

Mayor İlkin Rzayev Vətən müharibəsində göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə “Vətən uğrunda”, “Kəlbəcərin azad olunmasına görə” medalları, “Azərbaycan bayrağı” ordeni ilə təltif edilib.

Hər kəs bir ömrün sahibidir. Az-çox yaşamağından asılı olmayaraq, bir gün son gəlir. Şəhidlər isə adilikdən çox uzaqdırlar. Bu gün şəhidlər bizim həm ürək ağrımız, həm də qürur yerimiz, fəxrimizdir. Kimliyindən asılı olmayaraq, hər bir şəhid Vətən övladlarının qəlbinə düşmüş bir qordur. Elə bir qor ki bu millət yaşadıqca o, işıq saçacaq xalqımızın yoluna, örnək olacaq gələcək nəsillərə…

**Ramiyyə ƏKBƏROVA**

# Vətənpərvərlik proqramlarının hazırlanması diqqətdə saxlanılmışdır

Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası noyabr ayında muxtar respublikanın teleradiolarının fəaliyyətini izləmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərman və sərəncamlarından, təsdiq olunmuş Dövlət proqramları və Tədbirlər planlarından irəli gələn vəzifələrin teleradiolarda icrasını diqqətdə saxlamışdır. Noyabr ayında Naxçıvan Televiziyasının öz teleməhsulları efirin 72 faizini təşkil etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclis Sədrinin iştirak etdiyi tədbirlərə həsr olunmuş 10 telematerial hazırlanmışdır.

Hesabat ayında verilişlərin növbəti 106 sayı efirə təqdim olunmuşdur. Verilişlər müxtəlif redaksiyalar tərəfindən hazırlanmışdır. Şuranın tədbirlər planına uyğun olaraq Naxçıvan Radiosu ay ərzində 472 saat efirdə olmuşdur. Ümumi efirin 49 faizi radionun öz istehsalı olan verilişlər, 51 faizi isə konsert proqramlarından ibarət olmuşdur.

Zəfər Günü radio efirində təntənəli veriliş və konsert proqramları ilə yadda qalmışdır. Verilişlərdə Vətən müharibəsinin xronologiyasına uyğun olaraq ötən il işğaldan azad edilmiş şəhər və rayonlarımızın işğaldan sonrakı vəziyyəti haqqında ətraflı məlumatlar təqdim edilmişdir.

“Kanal 35” televiziyasında təhsilyönümlü verilişlərlə yanaşı, vətənpərvərlik aşılayan proqramlar da diqqətdə saxlanılmışdır. “Naxçıvanın səsi” radiosu bəhs edilən dövrdə 472 saat efirdə olmuş, efir müddətinin 146 saatını canlı yayım proqramları təşkil etmişdir. Noyabr ayında yeni layihələr də efirə təqdim olunmuşdur. Hesabat dövründə şura tərəfindən noyabr ayı ərzində sosial şəbəkələrdə, ümumilikdə, 579 linkdə 1090 xəbər, foto və videomaterial paylaşılmışdır.

***Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası***

## İtmişdir

Abbasov Fəxrəddin Əmir oğlunun adına olan 413 inventar nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhər, İstiqlal küçəsi, bina 73, mənzil 23 ünvanında yaşamış Əsgərov Əbülfəz Sultan oğlunun adına olan 5425 inventar nömrəli texniki pasport və 07/109 nömrəli qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Telli Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 1072